Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 33-34 (7554-7555) ✲ 1933-cü ildən nəşr olunur ✲ Bazar ertəsi, 15 iyul 2019-cu il. ✲ news@qebele-ih.gov.az

## PREZIDENTIN İŞ GÜNDƏLİYİNDƏN

***10 iyul***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Ölkə başçısı İlham Əliyev Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib.

***9 iyul***

Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.

* * *

Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək görüşü olub. Daha sonra tərəflər geniş tərkibdə görüşüblər.

***8 iyul***

Dövlət başçımız İlham Əliyev İtaliyanın Turizm, Meşəçilik, Qida və Kənd Təsərrüfatı naziri Gian Marko Centinaionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***6 iyul***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Veneto regionunun prezidenti Luka Zayani və İtaliya nümayəndə heyətinin üzvlərini qəbul edib.

***5 iyul***

Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

***3 iyul***

Ölkə başçımız İlham Əliyev "Baker Hughes, a GE company" şirkətinin sədri, prezidenti və Baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.

**İlham ƏLİYEV:** *İnsanların həyat şəraitini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var.*

# Konkret hədəflərə istiqamətlənmiş iqtisadi siyasət Azərbaycanı regionun ən güclü ölkəsinə çevirib



Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı iqtisadi, siyasi təməl üzərində qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması ulu öndərin, modernləşməsi, daha da güclənməsi və milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə real fəaliyyət proqramlarını hazırlamadan ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüşə nail olmaq mümkün deyil. Ötən 15 il ərzində Prezident İlham Əliyev ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirib.

Dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2019-cu illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır.

Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət alıb, Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrilib.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövrü ərzində qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da, son illər qeyri-neft sektorunda ümumi iqtisadi artım önə çıxıb. İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioriteti olub. Keçid dövrünü yaşamış hər bir ölkə kimi Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanıb, ancaq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla inkişaf etdirib, onun neftdən asılılığını əhəmiyyətli şəkildə azaldıb.

Ölkə başçısı tərəfindən aparılan uğurlu siyasətdə regionların inkişafı prioritet sahədir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı aparılan siyasət və dövlət proqramlarının icrası bölgələrimizi bütün zəruri infrastrukturla təmin edib. Aparılan uğurlu siyasət nəticəsində kəndlərə içməli su, təbii qaz xətləri çəkilir, müasir yollar, yeni yaşayış məntəqələri salınır.

Həyata keçirilən ardıcıl islahatlar Azərbaycanı regionun ən güclü ölkəsinə çevirib.

**"Qəbələ"**